BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2009*

# ƏDƏBİYYATŞÜNASLIQ

## ZƏLİMXAN YAQUB YARADICILIĞINDA QARABAĞ MÖVZUSU

**İ.S.ƏLİYEVA**
***Baki Dövlət Universiteti***
***ifrateliyev@box.az***

*Zəngin və əhatəli yaradıcılıq yolu keçən Zəlimxan Yaqubu vətən, xalq, soykökünə qayıdış, torpaq həsrəti narahat edən mövzulardandır.*

*Zəlimxan Yaqub B.Vahabzadə, N.Xəzri, X.Rza, F.Sadıq, F.Mehdi kimi söz ustaları tək Qarabağ hadisələrinə laqeyd qalmamış, yaradıcılığında bu mövzuya geniş yer ayırmışdır. Məqalə məhz Z.Yaqubun yaradıcılığındakı bu motivlərə toxunulur.*

Azərbaycan şeirinin müasir dövrdəki ən parlaq simalarından olan Z.Yaqub xalqımızın mənəvi dünyasının poetik təzahürüdür. Zəngin və möhtəşəm tarixi olan xalq poeziyasının bağrından qopub gələn Z.Yaqub bu gün ən gözəl, çağdaş nümayəndəsidir.

Zəngin və əhatəli yaradıcılıq yolu keçən Zəlimxan Yaqubu daim düşündürən mövzular içərisində vətən, xalq mövzusu olmuşdur. Akademik B.Budaqovun dediyi kimi "Azərbaycan torpağını bərəkətli bir torpaq kimi qələmə vermək üçün torpağa Zəlimxan məhəbbəti lazımdır" (2). Zəlimxanın nəfəsi dəyən yerdə xeyir-bərəkət göyərməlidir. Çünki bütün vətənpərvər şairlər kimi o da qanı özünə hopdurulmuş ana torpağının yetirdiyi oğullardan biridir (3). Daim axtarışda olan Z.Yaqubun yaradıcılığında milli ruh, vətəndaşlıq motivləri, tarixə, kökə qayıdış, yurd, torpaq həsrəti mühüm yer tutur. Heç təsadüfi deyil ki, onun "Dərdimizin bayatı düzümü" silsiləsindən olan kitabında olan bu mövzuya dair xeyli bayatılar toplanmışdır. Bu bayatılarda da Vətən, xalq dərdi önə çəkilib. Xalqın min illər boyu yaratdığı və doğma anasının qoşduğu bayatılar şairin ilham mənbəyinə çevrilmişdir. Lirik şeirlərində olduğu kimi, bayatılarında da o, Qarabağ harayından, Laçın fəryadından, Şuşa naləsindən, Aşıq Ələsgər, Aşıq Alı, Dədə Şəmşirin tənha qalmış qəbirlərinin göynərtisindən ürək ağrısı ilə yazmışdır. Əldən getmiş doğma yurd yerlərindən, bir sözlə, paralanmış Azərbaycandan qəmli duyğuları həsrətlə qələmə alan şair laylanın, bayatının dili ilə oxumağa başlayır:

Dərd bizi dara bağlar,
Yol kəsər, ara bağlar.
Qarabağa gedənlər
Meylini hara bağlar?

Şuşadan Laçına bax
Qarabağdan Xaçına bax.
Yazıq anam saç yolur,
Əlində saçına bax.
Ağdamın keşik dağı,
Görünmür Beşikdağı.
Yüz il getməz ürəkdən
Ev dağı, eşik dağı (8, 34).

Ən yüksək, ideal mətləbləri bayatı kimi lakonik ədəbi formada sənətkarlıqla ifadə etmək bizim folklorumuzun səciyyəvi xüsusiyyətidir. Az sözlə böyük məna aşılamaq Z.Yaqub şeirlərinin də ümdə cəhətidir" (4, 74). Onu folklor ədəbiyyatımıza yaxınlaşdıran da elə budur. Şairin çoxsaylı bayatılarını nəzərdən keçirəndə bu nəticəyə gəlmək olur. Bunların altında konkret imzasını görməsək, oxucuya elə gələr ki, bu bayatıların hamısı xalqın uzun əsrlərin süzgəcindən axıb gələn şeir nümunələridir.

Bayatılarında sadəcə şeir düzümü, misraların büllur saflığı, ürəyə yatımlığı deyil, daha çox dərin məna, mətnaltı fikir diqqəti cəlb edir. Lirik "Mən" yalnız Şuşa ilə, Ağdamla deyil, həm də digər başıbəlalı yurd yerlərimizlə ağlayıb göz yaşı tökür. Bu misralarda Daşaltı da, Laçın, Qubadlı da, Zəngəzur, Kəlbəcər, Zəngilan da, Bərgüşad, Həkəri də "hönkürtü" ilə çırpınır.

Bu dövrlərdə poeziya həmişə xalqla, cəmiyyətin ağrılı problemləri ilə birgə olmuşdur. Onun sevincini də, qəmini, dərdini də özündə yaşatmışdır. Ilk reaksiya bildirməyi, ilk səlahiyyətli sözü deməyi, əsrin faciəsini dərhal xalqa çatdırmağı başqa yanlardan əvvəl məhz poeziya öz üzərinə götürmüşdür. Bu da təbiidir. Çünki şeirin yolu qısa və kəsədir. Operativlik, çeviklik onun mahiyyət və xarakterindən irəli gəlir. Bəlkə buna görədir ki, indiki problemlərimiz, o cümlədən zorun, gücün sayəsində xalqımıza ağır yük olan, minbir fırıldaq, çirkin siyasətlə boynumuza sırınan Qarabağ məsələsində daha aktiv rolunu poeziyamız öz üzərinə götürmüşdür. Şübhəsiz ki, ədəbiyyatımızın bütün sahələri – hekayə, povest, dram, roman, publisistika bu məsələ ilə bağlı öz prinsipial, səlahiyyətli sözünü layiqincə demiş və deməkdə davam edir. Bizim məqsədimiz yığcam bir şəkildə bu sahədə şeirimizin tutduğu mövqe və rolunu oxucularımıza çatdırmaqdır. Ədəbiyyatımızın elə bir nəslinin nümayəndəsi yoxdur ki, bu yaralı məsələmizə öz münasibətini bildirməsin. Anar, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Fikrət Qoca, Məmməd Araz, Xəlil Rza Ulutürk, Ramiz Rövşən, Famil Mehdi, Qabil, Nəriman Həsənzadə kimi yaşlı və orta nəslə mənsub sənətkarlarımız, o cümlədən gənc ədəbi nəsil çox fəal çalışmış, qiymətli sənət nümunələri yaratmışlar.

Görkəmli şairlərimizin - B.Vahabzadə, N.Xəzri, X.Rza, N.Həsənzadə, F.Qoca, F.Sadıq kimi sənətkarların Vətən, Qarabağ harayına hay verən, səsini ucaldanlardan biri də xalq şairi Zəlimxan Yaqubdur. O, vətəndaş-şair cəsarətilə başımıza gətirilən müsibətlərə qarşı çıxmaqla kifayətlənmir, xalqı ayıq-sayıq olmağa, düşmən həmləsinə yol verməməyə çağırır. Azərbaycanın qədim, comərd kişilərini haraylayır, gənclərimizi babalarına layiq görmək istəyir:

İsti yurdum, yuvam hanı,
Ağır elim, obam hanı.
Qan yatırdan babam hanı,
Hara baxsan qan görünür.

Pələng ürəkli kişilər,
Qaya ürəkli kişilər,
Duzlu-çörəkli kişilər,
Yeriniz yaman görünür (6, 34)

Bu sətirlərdə xalqın dərdi, qayğı və düşüncələri çox lakonik bir tərzdə ifadə olunmuşdur. “Din, imanın tükəndiyini” görən şair, əlillərin də, qaçqınların da “yardımına” göz dikənləri, “başı qarnında” olanları, Vətəni unudanları kəskin qələmi ilə damğalayır, onların “canavar” sifətini qəzəblə aşkarlayır.

“Zəlilin yardımı zəlilin deyil, Diplomlu, savadlı zəlillərindi”-deyən şair böyük ürək ağrısı ilə bundan çıxış yolu arayır, üzünü yenə də millətin sağlam təbəqəsinə tutur (5, 13):

Dəli dalğalara, sərt tufanlara,
Çıxın, sinəsini gərən tapıla.
“Yağı yağ üstünə çıxa” millətin,
Ayranı biryolluq ayranlıq ola.

Ya aydınlıq gələ qaranlıqlara,
Ya da birdəfəlik qaranlıq ola!...
“İndinin harınları, qalanları başqadı,
Səhra həmin səhradı, ilanları başqadı” (7)

deyən müəllif, pula, rüşvətə susayanları ittiham edir, onları mənəvi saflığa, “bir az da Vətəni, xalqı düşünməyə” səsləyir. Imkanı olan məmurlardan, var-dövləti başından aşanlardan” imdad istəyir, onlara Vətənindən didərgin düşənlərə kömək əllərini uzatmalarını məsləhət bilir. “Torpağı yad əlində, özü çadırda əsir” olanlara yardım əlini uzada bilməyən şair mənəvi əzablar içində yanıb qovrulur. “Günü ah-vayla keçənlərə” həqiqi qayğıdan, səmimiyyət və məhəbbətdən məhrum olanlara kömək etmək iqtidarında olmayan şair öz düşüncələrini belə ifadə edir:

Allahı çağırırsan, eşqin Allaha çatmır,
Eşitmir vəzir, vəkil, əllərin şaha çatmır,
Mənim gücüm çəkdiyin aha, ağrıya çatmır,
Səni necə qurtarım ağrıların əlindən?

Nə şaham, nə Allaham, nə peyğəmbərəm, nə sultan,
Qəlbindən keçənləri yaratmağa yox imkan.
Təbiətdə qasırğa, cəmiyyətdə sərt tufan,
Səni necə qurtarım ağrıların əlindən?

Sən millətin övladı, mən millətin vəkili,
Ürəyim cadar-cadar, yuxum ərşə çəkili.
Əlim göyə uzalı, gözüm göyə dikili,
Səni necə qurtarım ağrıların əlindən? (8)

Elə buna görədir ki, şair bir vətəndaş kimi əzab şəkir, “Kimsəsizlər kimsəsini” köməyə çağırır, “dərd olub neyə çəkilməyi, nur olub göyə çəkilməyi” arzulayır. Mənəvi iztirablar içərisində qalan lirik “mən” dərdinə “məlhəm” tapa bilmir. “Dərd

ucuz, dərman baha” bir dünyada “ümidsiz sabahlara” bel bağlamır.

“Həqiqi şair dərd çəkən, dərd yaşayandır. Çəkili, siqlətli poeziya da elə dərddən yaranır. Məhz bu nöqtədə Z.Yaqub öz sələfləri kimi “dərd oylağımdır mənim” qənaətini təsdiqləyir”. “Kənd alışır, şəhər yanır içimdə, Qəm qovrulur, kədər yanır içimdə”, “Qarışqanın qarşısında diz çökür, Fil dərdini gəlib mənə danışır”, “Mən bu yurdun ozanıyam, sazıyam”, “Bir razı qalana rast gəlmədim mən, dağılmış dünyadan hamı narazı”, “Ahım Ağrı dağın başına çatır, Gücüm gözlərimin yaşına çatır”-söyləyəndə biz şairin səmimiliyinə inanır, dərdinə şərik oluruq. Müdrik ozanların, klassik yazarların “qəm karvanı” onu da haraylayır, “batman gələn dərddən” “diz bükülür, baş titrəyir, əl əsir”: (2, 32)

Seçmək olmur nə gecəni, səhəri,
Yaman günə kimlər saldı bəşəri?!

Insan başqa, dövran başqa təbdədi,
Ümidimiz dərmandadı, həbdədi.
Aman Allah, qul bazarı dəbdədi,
Qul dərdini gəlib mənə danışır. (7)

Bütün bunlar şairi bəzən ümidsizliyə salır, özünü tənha və gücsüz hesab edir, “öz işindən, öz əməlindən əl çəkməyən şeytanın” nəinki təkcə Qarabağı, hətta bütöv bir ölkəni özünə ram etmək iştahası onu qəzəbləndirir, dünyanı, Allahı köməyə çağırır:

Zəlimxan, mən kiməm, hökm Allahındı,
Dəli olmağıma bir addım qalıb.

Belə ağır anlarda şair yalnız böyük Allaha bel bağlayır, dünyanın ədalət səsinə inam bəsləyir.

“Z.Yaqub siyasətin deyə bilmədiklərini şeirin dili ilə deyir. Onun nəzərində Şuşa yalnız Qarabağın bir hissəsi deyil, Azərbaycanın ayrılmaz bir parçasıdır. Şairlər, sənətçilər, ziyalılar, dahilər yurdudur. Təbiətin, gözəlliyin tacıdır. Bu cür gözəllikdən, şeir-sənət Olimpindən əl üzmək cinayət deyilmi? (4, 74-83) Belə müqəddəsliyin, təbiətin nadir, cilvəli möcüzəsinin düşmən tapdağı altında iniltisinə dözmək olarmı? Çırpınan yaralı quşu, qanadı qırılan qartalı, ismətinə, bakirəliyinə xələl gəlmiş dağlar gözəlini öz əvvəlki taxt-tacına qaytarmağın vaxtı deyilmi? Bütün bu məsum suallara cavab axtaran, lakin cavab tapa bilməyən şair Şuşanı yalnız yuxularda görməyindən həyəcanlanır, təlaş keçirir:

Bu gecə yuxuma gəlmişdi Şuşa,
Cabbar ağlayırdı, Xan ağlayırdı.
Dönmüşdü qanadı qırılmış quşa,
Qarabağ başabaş qan ağlayırdı...

Bu gecə yuxuma girmişdir Şuşa,
Pənah xan qəbirdə tir-tir əsirdi.
Şuşanı satanlar verib baş-başa
Şəhərin üstündə qiymət kəsirdi (8, 131)

Şair göstərirdi ki, Qarabağın başı üstündə qara buludlar dolaşmaqdadır. Pro-

moteyi çarmıxa çəkənlər, Nəsiminin dərisini soyanlar XX əsrdə də peyda oldu. Yaxın qonşu olan riyakarlar iblis donunda xalqımızın cəlladına çevirildilər. Neçə-neçə şəhərlər, kəndlər yerlə yeksan olundu. Abidələr, heykəllər, məscidlər dağıdıldı, uşaqlar, kişilər, qadınlar təhqir olundu. Indi də qəbirlər sökülür, müxtəlif tarixi qazıntılar aparılır, iblisanə siyasətlər yürüdülür, xalqımıza məxsus nə varsa-hamısı saxtalaşdırılır, özününküləşdirir. Tarixi yerlərimizə sahib olmaq üçün "faktlar", "dəlillər" uydurulur, ərazilərimiz erməniləşdirilir. Bunlar, əlbəttə, son illərin dəhşətli hadisələridir. Qarabağı qurbanlıq qoç, "quzu" kimi yeyib-talayan düşməndən azad etməyin müşgüllüyünü dərk edən şair xalqımızın bu tilsimdən çıxmasını möcüzə kimi təsvir və təsəvvür edir:

Tutaq ki, qaytardıq Şuşanı, qardaş,
Talanan namusu, tökülən gözü,
Tapdanan isməti kim qaytaracaq?!
Anadan, bacıdan, qızdan, gəlindən
Alınan qisməti kim qaytaracaq?
Doğranan qolları, donan qıçları,
Kəsilən başları kim qaytaracaq?! (7)

Mənəvi vicdanın, şeirin-sənətin divanı ilə şair əsl məhkəmə qurur, düşmənə ən ağır cəza kəsir. Bildirir ki, rəsmi, inzibati yollarla torpaqlarımızı geri qaytarmaq çətinləşsə də, poeziyanın dili ilə onları tərki-silah etmək, bütün dünya qarşısında rüsvay etmək daha böyük cəzadır. Şair həm də öz daxili düşmənlərimizi, diriykən ölü olanları, "canlı meyitləri", "barsız söyüdləri", "gizli maskaları", xalqa açıb göstərir, onların puç mənəviyyatını qəzəblə ifşa edir:

Xalqın taleyini hərraca qoymaq
Ən böyük siyasi fahişəlikdi...
Evinin içində didərgin olan
Yeganə millətik bu yer üzündə...
Qaçqınlıq peşəyə çevrilir indi,
Olmuşuq hamımız peşə qaçqını... (7)

Müəllif inamla bildirir ki, bu şər-şeytanlıq, milləti "keçi qiymətinə" satan manqurtlar gec-tez cəzalarına çatacaqlar:

Zaman söküb – tökəcək maskaları, donları,
Sabunlu kəndir tapıb xalq asacaq onları!..

Qarabağ mövzusu, şübhəsiz ki, geniş, dərin və məsuliyyətli bir mövzudur. Bu barədə nə qədər kitablar, elmi işlər, məqalələr yazılsa yenə də azdır. Bu zəruri, aktual mövzu, əlbəttə, həmişə davam etdiriləcəkdir. Xalqımız, bizim hər birimiz Qarabağ məsələsindən hələ çox danışacaq, çox yazacaqdır. Şairin özü etiraf etdiyi kimi, biz nəinki Qarabağ dərdinə, Şuşa, Laçın ağrısına, Xocalı "göynərtisinə" son qoymalıyıq, eyni zamanda, tarixi torpaqlarımıza, halal ərazilərimizə yiyə durmalıyıq. "Zəngəzurda, Göyçədə, Təbrizdə, Dərbənddə, Borçalıda başımıza gələnlər bizə böyük dərd olmaqla yanaşı, həm də ciddi ibrət dərsi olmalıdır..."

Z.Yaqub bu gün də Azərbaycan şeirinin önündə gedən şairlərdən biri kimi məhz bu amalla yaşayıb-yaradır.

## ƏDƏBİYYAT

1. Budaqov B. "Nə yerdə, nə göydə". Bakı: Şərq qəz., 2001, 2 fevral.
2. Xəlilov Ə. Olimpə gedən yolda. Bakı: Azəbaycan Universiteti, 2005, 173 s.
3. Maqsudov Q., Xəndan R.Z. "Təbiət şairi, torpaq şairi". Bakı: Ədəbiyyat və incəsənət qəz., 1983, 19 avqust.
4. Nəbiyev B. Ələsgər ətirli sətirlər / Azərbaycan jurn. Bakı: 1990, №6, s. 74-83.
5. Hüseynova Ə. Z.Yaqubun yaradıcılığı. Bakı: ADPU, 2006, 139 s.
6. Yaqub Z. Yolum evdən başlanıb. Bakı: Yazıçı, 1981, 63 s.
7. Yaqub Z. Şair harayı. Bakı: Gənclik, 1995, 220 s.
8. Yaqub Z. Bir əli torpaqda, bir əli haqda. Bakı: Azərbaycan, 1997, 487 s.


## КАРАБАХСКАЯ ТЕМАТИКА В ТВОРЧЕСТВЕ ЗЕЛИМХАНА ЯГУБА

**И.С.АЛИЕВА**

**РЕЗЮМЕ**

Среди тем, постоянно волнующих Зелимхана Ягуба, прошедшего богатый и творческий путь, важное место занимают такие мотивы, как национальный дух, гражданство, возвращение к исконным корням, отечество, тоска по земле. Народный поэт Зелимхан Ягуб наряду с такими видными мастерами слова, как Б.Вахабзаде, Н.Хазри, Х.Рза, Н.Гасанзаде, Ф.Садыг, Ф.Мехти, в 1990-е годы отозвался на карабахские события, поднял свой голос.

В статье использованы произведения поэта, посвященные данной теме, в которых он призывает наших сограждан, потерявших земли и живущих в палатках, не падать духом, высоко держать голову.

## GARABAGH THEME IN ZELIMKHAN YAQUB'S CREATIVITY

**I.S.ALIYEVA**

**SUMMARY**

Among the themes, constantly exciting Zelimkhan Yaqub, hawing passed rich literary activity such motives as national spirit, citizenship, return to native roots, motherland, homesickness bulk large.

People's poet Zelimkhan Yaqub side by side with the prominent writers, as B.Vahabzade, N.Khazri, Kh.Rza, N.Hasanzadeh, F.Sadiq, F.Mehti responded to Garabagh events in 1990 and raised his voice.

The article presents the works of the poet, dedicated to the given subject in which he calls up our fellow citizens, who lost their lands and live in tents, to present a bold front and, to hold their heads high.